# Ağsuda "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans keçirilib

**Konfransda Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə, professorlar Mahir Səbzəliyev, Qafar Cəbiyev, dosent Şaiq Əsgərov, Xarici İşlər Nazirliyinin şöbə müdiri Mətin Mirzə, Xalq artisti Əli Nuruzadə, rayon ağsaqqalları iştirak ediblər.**



Qonaqlar əvvəlcə ulu öndərin abidəsi önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildiriblər. Sonra



ümummilli liderin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov çıxışında bildirib ki, 1993-cü ilin iyun ayının 15-də ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı Azərbaycan xalqının tarixində dönüş nöqtəsi oldu. Ordu quruculuğuna, iqtisadi inkişafa şərait yaradıldı, təhsilin, mədəniyyətin yüksəlişi təmin edildi. Məhz bu prinsiplərin fövqündə milli ideologiyamızın əsası olan azərbaycançılıq formalaşdı. Ulu öndərin memarı olduğu milli dövlətçilik ideologiyasında azərbaycançılıq məfkurəsi ön plana çəkilmişdir.

Digər çıxış edənlər Heydər Əliyevin siyasi kursundan, onun həyat və fəaliyyətindən geniş bəhs ediblər. Bildiriblər ki, ulu öndərin qurduğu və azərbaycançılıq ideologiyasına əsaslanan milli dövlətimiz cəmiyyətin hər bir üzvünü vahid ideya ətrafında birləşdirən, mənafelərini qoruyan, müdafiə edən qürur mənbəyimizdir. Dövlətin qüdrəti onun iqtisadi potensialı və hərbi gücü ilə yanaşı, həm də xalqın birliyi, həmrəyliyi ilə ölçülür.

Milli ideologiyamızın əsasını təşkil edən azərbaycançılıq məfkurəsi bu gün də uğurla davam etdirilməkdədir.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti .- 2023.- 2 aprel.- S.5.